# AZƏRBAYCAN CÜDO FEDERASİYASININ MİLLİ YIĞMALARI ÜZRƏ QRUPLARA BÖLÜNMƏ VƏ YARIŞLARA GÖNDƏRİLMƏ MEYARLARI



VERSİYA: 09 İYUN 2022

Azərbaycan Cüdo Federasiyası

Azərbaycan Cüdosu 50 il

## Azərbaycan Cüdo Federasiyasının milli yığmaları üzrə qruplara bölünmə və yarışlara göndərilmə meyarları

Bu sənədin hazırlanmasında məqsəd Azərbaycan Cüdo Federasiyasının milli yığmaları üzrə müxtəlif qruplara bölünmə və yarışlara göndərilmə meyarlarının müəyyən edilməsidir.

**Qruplara bölünmə**

Böyüklərdən və qadınlardan ibarət milli yığma komandalar aşağıdakı 3 qrupa bölünür:

1. Elit komanda
2. 2-ci komanda (challenger team)
3. 3-cü komanda (developing team)

Komandaların qruplara bölünməsində əsas məqsəd onların məşq, təlim-məşq toplanışları və yarış proqramlarının mümkün qədər fərdiləşdirilməsi və optimallaşdırılmasıdır.

Qruplara bölünmə hər ilin yanvar və iyul aylarında aşağıda müəyyən edilmiş meyarlar üzrə həyata keçirilir. Bu zaman idmançının aşağı qrupdan yuxarı qrupa qaldırıldığı kimi, yuxarı qrupdan aşağı qrupa da düşürülə bilər.

Baş məşqçinin qərarına əsasən, istisna hal kimi idmançıların həmin tarixlər gözlənilmədən də, qruplar arasında yerləri dəyişdirilə bilər. Bu zaman baş məşqçi aşağıda müəyyən edilmiş meyarlara əlavə olaraq, aşağıdakı kriteriyaları nəzərə alır:

- İdmançıların məşq, təlim-məşq toplanışları, yarışlar və digər zamanlarda peşəkar və intizamlı davranışı
- Təlim-məşq toplanışları zamanı göstərdiyi səy və nəticə
- Məşqlər zamanı göstərdiyi səy və nəticə

Bu komandalara daxil olmaq üçün aşağıdakı meyarlar müəyyən edilir:

| Komanda | Meyarlar |
|---|---|
| Elit Komanda | • Olimpiya oyunlarında ilk 5-liyə daxil olmuş idmançılar<br>• Dünya Çempionatında ilk 5-liyə daxil olmuş idmançılar<br>• Avropa Çempionatında ilk 3-lüyə daxil olmuş idmançılar<br>• Masters, Böyük Dəbilqə kimi yarışlarda ardıcıl medallar qazanan, reytinqdə yüksək sıralamaya qalxan idmançılar (bu meyar üzrə yekun qərarı baş məşqçi verir) |
| 2-ci komanda (challenger team) | • Böyük Dəbilqə və Qran Pri yarışlarında medal qazanan idmançılar |

| | |
|---|---|
| | • Açıq Avropa turnirlərində ardıcıl medallar qazanan idmançılar (bu meyar üzrə yekun qərarı baş məşqçi verir) |
| 3-cü komanda (developing team) | • Açıq Avropa turnirində medal qazanan idmançılar<br>• Avropa Kubokunda medal qazanan idmançılar<br>• Ölkə çempionatında medal qazanan idmançılar |

**Yarışlara göndərilmə**

İdmançıların müxtəlif kateqoriyalı yarışlara göndərilmələri üçün aşağıdakı meyarlar müəyyən edilir.

| Yarışlar | Meyarlar |
|---|---|
| Avropa / Qitə Kuboku (bütün yaş qrupları üzrə)<br>Açıq Avropa / Qitə | • Müvafiq yaş qrupları üzrə ölkə çempionatının medalçıları olmuş idmançılar<br>***Böyüklər arasında yarışlar üçün***:<br>• Gənclər arasında Avropa və dünya çempionatında medal qazanmış idmançılar |
| Qran Pri<br>Böyük Dəbilqə | • Avropa / Qitə Kuboku (böyüklər) medalçıları<br>• Açıq Avropa / Qitə (böyüklər) medalçıları<br>• Gənclər arasında dünya çempionatının medalçıları |
| Avropa Çempionatı (böyüklər) | • Açıq Avropa medalçıları<br>• Qran Pri medalçıları<br>• Böyük Dəbilqə medalçıları<br>• Gənclər arasında dünya çempionatının medalçıları |
| Avropa Çempionatı (gənclər və yeniyetmələr) | • Avropa Kuboku medalçıları (müvafiq ən yaxşı nəticə göstərənlər) |
| Dünya Çempionatı (böyüklər) | • Avropa Çempionatı medalçıları<br>• Masters medalçıları<br>• Böyük Dəbilqə medalçıları<br>• Qran Pri medalçıları<br>• Açıq Avropa medalçıları (müvafiq ən yaxşı nəticə göstərənlər)<br>• Gənclər arasında dünya çempionatının medalçıları |
| Dünya Çempionatı (gənclər və yeniyetmələr) | • Avropa Çempionatı medalçıları (müvafiq yaş qrupu üzrə)<br>• Açıq Avropa medalçıları (böyüklər arasında) |

| | |
|---|---|
| | • Avropa / Qitə Kuboku medalçıları (müvafiq yaş qrupu üzrə ən yaxşı nəticə göstərənlər) |
| Olimpiya Oyunları | Müvafiq seçmə sənədinə əsasən |

Performans direktor və baş məşqçinin birgə qərarına əsasən, aşağıdakı meyarlar əsas götürülməklə idmançıların ilkin səviyyəli yarışlara (Avropa / Qitə Kubokları, Açıq Avropa və s. bu kimi turnirlər) göndərilməsində istisna hallar edilə bilər:

- İdmançıların məşq, təlim-məşq toplanışları, yarışlar və digər zamanlarda peşəkar və intizamlı davranışı
- Təlim-məşq toplanışları zamanı göstərdiyi səy və nəticə
- Məşqlər zamanı göstərdiyi səy və nəticə.